**Respublika.** - 2024.- 11 iyun. - № 122. - S. 1,8.

# COP29 unikal platforma olacaq

**Nurlan Abdalov**

**Müasir dövrdə hər bir ölkə üçün ən önəmli faktorlardan biri hərbi və iqtisadi gücə malik olmaqdır. Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətin nəticəsi olaraq Azərbaycan adıçəkilən istiqamətlər üzrə inkişafın ən yüksək mərhələsini yaşayır.**

İkinci Qarabağ müharibəsində hərbi gücü hesabına ərazi bütövlüyünü tam təmin edən dövlətimiz qlobal iqtisadi münasibətlərdə də etibarlı tərəfdaşa çevrilib. Ölkəmizin belə nüfuz qazanmasına təsir edən amillər var ki, buna Azərbaycanın yerləşdiyi coğrafi məkan da daxildir. Bütün bu üstünlüklər fonunda ölkəmizin malik olduğu potensial diplomatik və iqtisadi müstəvidə uğura çevrilib. Nəticə olaraq Azərbaycan Cənubi Qafqazın mərkəzi və lider dövləti kimi tanınır. Bu isə özlüyündə ölkəmizin bir çox nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsinə, Azərbaycanın beynəlxalq arenadakı mövqeyinin daha da güclənməsinə zəmin yaradıb. Bu ilin noyabrında Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a ev sahibliyi edəcək.

Bu tədbirin ölkəmizdə keçirilməsi böyük əhəmiyyətə malikdir. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üzərimizə böyük məsuliyyət qoyur. Amma bu günə qədər Azərbaycanda bir çox beynəlxalq tədbirlər keçirilib. Bu baxımdan, COP29-un daha yüksək səviyyədə təşkil ediləcəyi şübhəsizdir. Çünki Azərbaycanın iqtisadi və geopolitik gücü imkan verir ki, qlobal problemlərin müzakirəsi, həlli yollarının araşdırılması Bakıda baş tutsun. Beləliklə, dünyanın nəbzi yenidən Bakıda döyünəcək. Planetin gələcəyini müəyyənləşdirəcək bu tədbir ölkəmizin qlobal əhəmiyyətini və humanitar niyyətinin təsdiqi kimi qiymətləndirilir.

Ölkə başçısının yürütdüyü məqsədyönlü siyasət nəticəsində Azərbaycan yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə malik ölkə kimi dünyaya örnəkdir. Postsovet məkanında ilk dəfə olaraq ölkəmiz bu mötəbər qlobal tədbirə qapılarını açacaq. Bu qəbildən beynəlxalq ictimaiyyətin Azərbaycana dəstəyi, vahid nöqtədən çıxış etməsi ölkəmizin getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir. Dövlət başçısının qazandığı yüksək etimad və etibar beynəlxalq birliyin belə qlobal tədbirə ev sahibliyini məhz Azərbaycan dövlətinə həvalə etməsində böyük rol oynayır. Qeyd etmək yerinə düşər ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü zamanı və Qoşulmama Hərəkatına sədrliyi dövründə inamı doğrultmuş, beynəlxalq zəmində etimad qazanmışdır. Xüsusilə son 4 il ərzində BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik edən ölkəmiz QH-yə uğurlu miras buraxmışdır. Əbəs deyil ki, bu gün Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Bir məqamı da qeyd edək ki, COP29 konfransı tədbirdə iştirak edəcək ölkələr üçün yeni öhdəliklər götürməklə yanaşı, iqlim böhranını həll etmək, bununla bağlı konkret addımlar atmaq üçün fürsət yaradır. Azərbaycan da öz növbəsində yaranmış əlverişli şəraitdən məharətlə istifadə edərək "yaşıl enerji" istehsalını artırmağa nail olacaq. Hazırda ölkəmizdə bu mühüm tədbirin yüksək səviyyədə keçirilməsi üçün zəruri olan bütün işlər intensiv şəkildə davam edir. İqlim dəyişmələrinin azaldılmasına və "yaşıl enerji"dən istifadəyə yönəlmiş qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayan COP29, eyni zamanda Azərbaycanda "yaşıl ideyaların" reallaşması istiqamətində institusional və kompleks tədbirlərin həyata keçirilməsinə də töhfə verəcək. Bundan başqa, Bakıda keçiriləcək COP29 sadəcə ekoloji problemlərin müzakirəsi üçün deyil, onların həlli istiqamətində birlikdə mühüm addımların atılacağı böyük qlobal forum olacaq. Çünki ölkəmiz bu cür problemlərə dayanıqlı həll yolları tapmağa dair digər dövlətlərlə işləmək üçün böyük imkana malikdir. Bu gün Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə aktiv iştirak edir. Rəsmi Bakının bərpaolunan enerji mənbələri üzrə yüksək potensialı da ölkəmizə olan marağı artırır. Belə ki, Azərbaycanda bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavat təşkil edir. Gələcək perspektivlərdə bu göstəricilərin artırılması istiqamətində real addımlar atılacaq. Hazırda ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını proqnozlaşdırıb. Sudan səmərəli istifadə, təkrar emal, bu sahələrdə innovativ texnologiyaların tətbiqi, ətraf mühitə buraxılan zərərli qazların udulması və sağlam ekoloji mühitin yaradılması məqsədilə həyata keçirilən yaşıllaşdırma işləri, işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində görülən tədbirlər bütövlükdə COP29-un Azərbaycanda keçirilməsinə zəmin yaradan amillərdir. Digər tərəfdən dünya ölkələri ilə əməkdaşlığın perspektivləri də ortaya çıxır ki, bu məqamda da atılan addımlar təqdirəlayiqdir. Bununla yanaşı, 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən olunub

ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Xüsusi vurğulamaq lazımdır ki, respublikamızda bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında qoyulub. Bu istiqamətdə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi dövlətimizin iqlim dəyişmələri ilə mübarizədə necə aktiv olduğunu bir daha göstərir. Xatırladaq ki, cəmi 44 gün ərzində düşməndən azad olunmuş Şərqi Zəngəzur və Qarabağ torpaqları da "Yaşıl enerji zonası" elan edilib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub. Həmin ərazilərdə bərpaolunan enerjinin istehsalının artırılması, eləcə də günəş və külək elektrik stansiyalarının tikintisi Azərbaycanın mübarizəyə töhfəsini bir daha təsdiqləyir.

COP29-un Azərbaycanda keçirilməsi dövlətçilik tarixinin dünyaya çatdırılması üçün də yeni bir fürsətdir. Çünki Bakı ev sahibi olaraq minlərlə xarici qonağa qucaq açacaq. Onların çoxu isə Azərbaycana ilk dəfə gəlir. Həmin qonaqlar burada olduqları müddətdə mövcud vəziyyəti qiymətləndirmək imkanı əldə edəcəklər. Bu isə Azərbaycanın dünya miqyasında bir daha nüfuzunun artması ilə nəticələnəcək.